# İBRAHİMOV NURƏDDİN İSLAM OĞLU



16 mart 1951-ci ildə Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olmuşdur. 1969-cu ildə 125 saylı orta məktəbi bitrmiş, 1970-ci ildə ordu sıralarına çağırılmışdır. 1978-ci ildə İrkutsk şəhər Daxili İşlər İdarəsinə işə qəbul olunmuşdur. 1981-ci ilin mayında SSRİ Daxili İşlər Nazirliyinin Xabarovsk şəhər Ali Milis Məktəbinə qəbul olmuşdur. 1982-ci ildə İrkutsk şəhərində inspektor vəzifəsinə təyin olunmuşdur. 1986-cı ildə hüquqşünas ixtisası üzrə ali təhsilini başa vurduqdan sonra 1988-ci ildə cinayət axtarışı şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir. 1989-cu ildə o, İrkutsk Şəhər Sovetinə deputat seçilmişdir. 1990-cı ildə vətənə dönən Nurəddin İbrahimov 1993-cü ildə Kosalar kəndi və Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərmişdir. Polis mayoru Nurəddin İbrahimov 1995-ci il fevralın 10-da Binə qəsəbəsindəki cinayətkar dəstəni zərərsizləşdirərkən həlak olmuşdur. Bakı şəhərinin Buzovna qəsəbəsindəki qəbirstanlıqda dəfn edilmişdir. Evli idi. Bir qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 saylı Fərmanı ilə İbrahimov Nurəddin İslam oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Buzovna qəsəbəsindəki küçələrdən biri və mədəniyyət evi onun adını daşıyır. Mədəniyyət evinin qarşısında büstü qoyulmuşdur.